**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№355/8** **13 aprel 2023-cü il**

**Auditorların peşə məsuliyyətlərinin icbari sığortalanması vəziyyətlərinin monitorinqi barədə**

“Auditor xidməti haqqında” Azərbaycan Respublikasının Qanununun 13-cü maddəsinə və “Auditorun peşə məsuliyyətinin icbari sığortası haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən, habelə Auditorlar Palatasının 2023-cü il üzrə iş planının 7.6-cı “Palatanın üzvləri tərəfindən icbari sığortaya dair qanunvericiliyin tələblərinin monitorinqi” bəndinin icrasını təmin etmək məqsədilə Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsi (Z.Almazov), Auditin təşkili və hesabatlılıq idarəsi (V.Cavadov) tərəfindən təqdim edilmiş “Auditorların peşə məsuliyyətlərinin icbari sığortalanması vəziyyətinin monitorinqinə dair arayış”ı müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. “Auditorların peşə məsuliyyətlərinin icbari sığortalanması vəziyyətinin monitorinqinə dair arayış” nəzərə alınsın (əlavə olunur).
2. Auditorun peşə məsuliyyətinin icbari sığortasını təmin etməyən adları aşağıda qeyd olunan sərbəst auditorlara qanunvericiliyin tələblərinə riayət etmədiklərinə görə şəxsi işlərinə qeyd edilməklə xəbərdarlıq elan edilsin:
   - Rzayev Akif Məlik oğlu;
   - Zəkiyev Zəki Etibar oğlu.
3. Bu qərarın 2-ci bəndində adları qeyd olunan sərbəst auditorlara tapşırılsın ki, qanunvericiliyin tələblərinə uyğun olaraq auditorun peşə məsuliyyətinin icbari sığortası müqaviləsinin iki həftə müddətində bağlanmasını təmin etsinlər və bu barədə Auditorlar Palatasını məlumatlandırsınlar, əks təqdirdə onlara ölkədə auditor fəaliyyətinin göstərilməsi üçün verilmiş icazələrin geri alınması həyata keçirilsin.
4. Auditin təşkili və informasiya idarəsinə (V.Cavadov) tapşırılsın ki, bu qərardan irəli gələn məsələləri həll etsin.
5. Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsinə (Z.Almazov) tapşırılsın ki, bu qərarın mətninin xəbərdarlıq məktubu ilə birlikdə adları qeyd edilən sərbəst auditorlara göndərilməsi təmin edilsin.
6. Sədrin müşaviri F.Qarayevə tapşırılsın ki, bir həftə müddətində bu qərarın mətninin Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**Şuranın sədri** **Vahid Novruzov**